# *Hilmi DAŞDEMİR:* "Azərbaycan Prezidentinin sülh yolunda atdığı addım olduqca vacib və dəyərlidir"

**"Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin iştirakı ilə imzalanmış bəyannamə olduqca mühümdür. Bu, bizə ATƏT-in Minsk qrupunun prosesə gözlənən töhfəni vermədiyini və ləğvini, eləcə də yeni mərhələyə keçildiyini göstərmiş oldu".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Optimar" Araşdırma Mərkəzinin rəhbəri, siyasi ekspert Hilmi Daşdemir səsləndirib.

Yeni mərhələyə keçidin ən mühüm məqamlarından birinin Azərbaycan ilə Türkiyə və bunun davamı olaraq digər ölkələrə açılan dəhlizin reallaşması olduğunu vurğulayan ekspert deyib: "Bu dəhlizin bölgə üçün ən böyük faydalarından biri rifahın artırılması, eləcə də yeni İpək yolu ilə birləşəcək olmasıdır. Azərbaycanla Naxçıvanı quru yolu vasitəsilə birləşdirəcək bu dəhliz nəinki Azərbaycan, Türkiyə və Ermənistan, eləcə də digər bölgə xalqlarına, o cümlədən Orta Asiyadakı türkdilli ölkələrə böyük töhfə verəcək, sülh və bərəkət gətirəcək. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin bu addımının olduqca vacib və dəyərli olduğunu xüsusi vurğulamaq, prosesi bu çərçivədən dəyərləndirmək vacibdir. Qarşıdakı dövrdə bölgəmizdə rifahın olduqca təsirli şəkildə yayılacağını görəcəyik. Bunun üçün imza atanların adları isə tarixə qızıl hərflərlə yazılacaq".

Azərbaycan.- 2025.- 12 avqust (№167).- S.7..